| | | | |
|---|---|---|---|
| **Yanvar** | **Fevral** | Mart | Aprel |
| May | İyun | İyul | Avqust |
| Sentyabr | Oktyabr | Noyabr | Dekabr |

## YANVAR

**2 yanvar** Monteneqronun Prezidenti Yakov Milatoviçə Çetinye şəhərində silahlı hücum nəticəsində insanların həlak olması ilə əlaqədar başsağlığı vermişdir.

**7 yanvar** Çin Xalq Respublikasının Sədri Si Cinpinə Sidzan Muxtar Rayonunun Şiqatse şəhərində baş vermiş güclü zəlzələ nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar başsağlığı vermişdir.

**8 yanvar** Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Maqdalena Qrononu qəbul edib.

İran İslam Respublikasının Milli Təhlükəsizlik üzrə Ali Şurasının katibi Əli Əkbər Əhmədianı qəbul edib.

**9 yanvar** Gürcüstanın Baş naziri İrakli Kobaxidzeyə Qali rayonunun Saberio kəndində baş vermiş yanğın nəticəsində beş uşağın həlak olması ilə əlaqədar başsağlığı vermişdir.

**10 yanvar** Litva Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kestutis Vaşkeleviçusun etimadnaməsini qəbul edib.

Küveyt Dövlətinin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Məhəmməd Feysal əl-Mutairinin etimadnaməsini qəbul edib.

**13 yanvar** **Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın dəvəti ilə Birləşmiş Ərəb Əmirliklərində işgüzar səfərdə olmuşdur.**

Əbu-Dabidə Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan birgə nahar ediblər.

Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə görüşü olub.

**14 yanvar** Birləşmiş Ərəb Əmirliklərinin paytaxtında Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılışı və Zayed Dayanıqlılıq Mükafatının təqdimat mərasimində iştirak edib.

**15 yanvar** Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Baş katibi Kayrat Sarıbayı qəbul edib.

**16 yanvar** Aktivlərin idarə edilməsi üzrə dünyanın aparıcı şirkətlərindən biri olan “Franklin Templeton” şirkətinin Baş icraçı direktoru və prezidenti Cenni Consonu qəbul edib.

**17 yanvar** Ölkəmizdə işgüzar səfərdə olan Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə təkbətək görüşü keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Kobaxidze mətbuata bəyanatlarla çıxış ediblər.

**17 yanvar** Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə nahar əsnasında geniş tərkibdə görüşü olub.

**18 yanvar** Türkiyə Respublikasının xarici işlər naziri Hakan Fidanı qəbul edib.

**20-22 yanvar** **Dünya İqtisadi Forumunda iştirak etmək üçün İsveçrə Konfederasiyasında səfərdə olmuşdur.**

Davosda CGTN (China Global Television Network) telekanalına müsahibə verib.

Davosda “OliverWyman Group” şirkətinin Baş icraçı direktoru Nik Studer ilə görüşüb.

**21 yanvar** Davosda qarşı tərəfin müraciəti əsasında Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçs ilə görüşüb.

Davosda qarşı tərəfin müraciəti əsasında “The Goldman Sachs Group Inc.” şirkətinin qlobal məsələlər üzrə prezidenti Cared Kohen ilə görüşüb.

Davosda qarşı tərəfin müraciəti əsasında İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid ilə görüşüb.

Davosda qarşı tərəfin müraciəti əsasında “DP World” şirkətlər qrupunun sədri və icraçı direktoru Sultan Əhməd bin Sulaim ilə görüşüb.

Davosda qarşı tərəfin müraciəti əsasında İraq Kürdüstan Regionunun Baş naziri Məsrur Bərzani ilə görüşüb.

Davosda qarşı tərəfin müraciəti əsasında Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts ilə görüşüb.

Davosda qarşı tərəfin müraciəti əsasında İsrail Dövlətinin Prezidenti İsxak Hersoq ilə görüşüb.

Davosda qarşı tərəfin müraciəti əsasında “Carlsberg Group” şirkətinin Baş icraçı direktoru Yakob Aarup-Andersen ilə görüşüb.

Donald Trampa Amerika Birləşmiş Ştatlarının Prezidenti 47-ci Prezidenti kimi fəaliyyətə başlamağı münasibətilə təbrik məktubu göndərmişdir.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana Bolu vilayətinin Kartalkaya dağ-xizək mərkəzinin otelində baş vermiş yanğın nəticəsində çox sayda insanın həlak olması ilə əlaqədar başsağlığı vermişdir.

**22 yanvar** Davosda qarşı tərəfin müraciəti əsasında Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşüb.

Davosda qarşı tərəfin müraciəti əsasında ABŞ-ın Xristian Liderlər Konqresinin rəhbəri Conni Mur ilə görüşüb.

| | |
|---|---|
| **22 yanvar** | Davosda qarşı tərəfin müraciəti əsasında Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) prezidenti Odile Reno-Basso ilə görüşüb. |
| | Davosda qarşı tərəfin müraciəti əsasında Xorvatiya Respublikasının Baş naziri Andrey Plenkoviç ilə görüşüb. |
| **23 yanvar** | Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edərək Bolu vilayətinin Kartalkaya dağ-xizək mərkəzinin otelində baş vermiş yanğın nəticəsində çox sayda insanın həlak olması ilə əlaqədar dərin hüznlə başsağlığı verib. |
| | Avstraliya İttifaqının General-Qubernatoru xanım Samanta Mostinə ölkənin milli bayramı münasibətilə təbrik məktubu göndərmişdir. |
| **27 yanvar** | Sloveniya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Qorazd Rençelin etimadnaməsini qəbul edib. |
| | Qvineya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Umar Kandenin etimadnaməsini qəbul edib. |
| | İsrail İqtisadi Forumunun həmtəsisçisi və İdarə Heyətinin üzvü Conatan Misneri qəbul edib. |
| | Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkoya zəng edərək Belarus Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməsi münasibətilə təbrik edib, fəaliyyətində uğurlar arzulayıb. |
| | Aleksandr Lukaşenkoya Belarus Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməsi münasibətilə təbrik məktubu göndərmişdir. |
| | Çin Xalq Respublikasının Sədri Si Cinpinə qarşıdan gələn Bahar bayramı münasibətilə təbrik məktubu göndərmişdir. |
| **30 yanvar** | Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampa Vaşinqton şəhəri yaxınlığında sərnişin təyyarəsinin hərbi helikopter ilə toqquşması nəticəsində çox sayda insanın həlak olması əlaqədar başsağlığı vermişdir. |

# FEVRAL

**4 fevral** Şri-Lanka Demokratik Sosialist Respublikasının Prezidenti Anura Kumara Dissanayakeyə ölkənin milli bayramı – Müstəqillik Günü münasibətilə təbrik məktubu göndərmişdir.